**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədrisin təşkili və təlim
texnologiyaları üzrə prorektor v.i.e:
_______dos. Zaur Məmmədov
"31" 01 2025-ci il

**Fənn sillabusu**

**İxtisas:** 050101-Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı:** Dünya ədəbiyyatı-1. Fənn proqramı: Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 13 sentyabr 2024-cü il tarixli 328/32.612 F/2024 nömrəli əmri ilə təsdiq edilmişdir.
**Kodu:** İF-B11.1
**Tədris ili:** I (2024-2025) Semestr: II
**Tədris yükü cəmi:** Auditoriya saatı -45 (30 saat mühazirə, 15 saat seminar )
**Tədrisalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 5 kredit
**Auditoriya:** №
**Saat:**
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı, dərəcəsi:** Kamran Kazımov, fil.e.d.,prof.
**Məsləhət günləri və saatı:**
**E-mail ünvanı:** kkamran@mail.ru
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu

**III.Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**

**Əsas ədəbiyyat**

1.T.Novruzov. Qədim Şərq ədəbiyyatı. Bakı, 2003
2.C.Nağıyev. Qədim Şərq ədəbiyyatı. "Asiya" nəşriyyatı, Bakı, 2004.
3.T.Novruzov. Qədim Dünya ədəbiyyatı. Bakı, 2003
4.T.Novruzov. Antik ədəbiyyatı tarixi. Bakı, 2003
5.T.Novruzov. Orta əsrlər Qərb ədəbiyyatı tarixi. Bakı, 2005

**Əlavə ədəbiyyat**

6.S.Q.Əsədullayev. "Azərbaycan poeziyasında sonet janrı"(tarixi və nəzəriyyəsi). Baki, 2002.
7.Qədim Şərq ədəbiyyatı müntəxəbatı. Bakı, 1999.
8.Şərq xalqları ədəbiyyatı. Bakı, 2015. (Tərtib edəni E.Quliyev)
9.Antik ədəbiyyatı müntəxəbatı, Bakı, 1958. (Tərtib edəni Ə.Sultanlı)
10. T.Cəfərov. Qədim rus ədəbiyyatı. B., 2008
11.XVIII əsr rus ədəbiyyatı. APİ- nin nəşri. B., 1958.

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədənbaşqa fənlərin də tədris olunmasına zərurət yoxdur

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI.Fənnin təsviri və məqsədi:**"Dünya ədəbiyyatı" tədris kursu Xarici dillər kafedrası nəzdində "Filologiya" istiqaməti üzrə ixtisasların tədris planı çərçıvəsində işlənmişdir. Tədris planına uyğun olaraq

bu kurs bakalavr tələbələri üçün müstəqil fənn kimi tədris olunur. Kursun tədrisi tədris ilinin II semestrində 30 s. mühazirə, 30 s. seminar nəzərdə tutulur.

Müasir şəraitdə elmi informasiyanın artması yüksək peşə və nəzəri hazırlıqla yanaşı, müstəqil yaradıcı iş bacarığına malik yüksək ixtisaslı filoloqların hazırlanması ciddi əhəmiyyət daşıyır. Bununla bağlı, ali məktəbin tədris planı tələbələrin xarici ölkə ədəbiyyatının məşhur nümayəndələrinin yaradıcılıqları ilə yaxından tanış olmaları, əsərlərinin ümumbəşər əhəmiyyətini, Azərbaycan ədəbiyyatşünaslığında yerinin müəyyənləşdiyini öyrənmələri nəzərdə tutulur.

Kursun məqsədi "Dünya ədəbiyyatı" kursunun yeni tələblər baxımından tədrisi , dünya (Şərq və intibah dövrünə qədər Qərb) ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılıqlarının tələbələrə dərindən mənimsədilməsidir ki, bu da müasir dövrdə təhsildə ən vacib faktorlardan birinə çevrilmişdir. Dünya xalqlarının zəngin ədəbi – bədii və kulturoloji irsinin öyrənilməsi təkcə bu faktla bitmir, bu proses ədəbi irslərin mənimsənilməsi ilə yanaşı, bu ədəbiyyatların tədqiqində və bir sıra elmi – nəzəri ,estetik – metodoloji prinsiplərin də yeni konsepsiyalar əsasında işlənməsində ədəbiyyatşünaslara yardımçı olur.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində , 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal- tələbənin cavabı əsasən düzgündür.
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.*
**X. Təqvim mövzu planı:** Mühazirə 30 saat, seminar 15 saat. Cəmi: 45 saat

| N | Keçirilən mühazirə mövzuların məzmunu | Müh | Tarix |
|---|---|---|---|
| 1 | **Mövzu.** Qədim Şərq ədəbiyyatı.(Şumer-Akkad ədəbiyyatı)<br>*Qısa icmal:* Qədim Şərq mədəniyyəti.Qədim Şərq xalqlarının əsatiri.Şumer-Akkad mədəniyyətinin yaranması və inkişaf tarixi.<br>*Mənbə:* [1; 2; 3; 4.] | 2 | |
| 2 | **Mövzu.** Qədim Misir və Çin ədəbiyyatı<br>*Qısa icmal:*Misir ədəbiyyatında siyasi mövzular.Cəmaləddin Əl-Əfqaninin yaradıcılığı.Hafiz İbrahim, Əhməd Nəsim, Əhməd Şövqi və b. yaradıcılığında yeni məzmunlu ədəbiyyatın yaranması. Klassik dövr Çin ədəbiyyatı. Lao-tszi. Lao-tszinin estetikası. Konfutsi. Həyatı və insan haqqında təlimi. Qədim Çin mədəniyyətinin son dövrü.<br>*Mənbə:* [1; 2; 3;4.] | 2 | |
| 3 | **Mövzu.** Qədim Hind və İran ədəbiyyatı.<br>*Qısa icmal:*Qədim hind mifologiyası və folkloru. Əsatir. "Riqveda". Budda ədəbiyyatı. Qədim Hind dastanları. "Mahabharata", "Ramayana"."Kəlilə və Dimnə". Əsərdə hikmətamiz fikirlər.<br>"Avesta". İslam dövrü və islamdan sonra fars poeziyasının inkişaf mərhələləri.İbn Sinanın həyat və yaradıcılığı.<br>*Mənbə:* [1; 2; 3;4.] | 2 | |
| 4 | **Mövzu.**Qədim Ərəb ədəbiyyatı<br>*Qısa icmal:* Qədim və orta əsrlər Ərəb ədəbiyyatında siyasi lirika.Cahiliyyə dövrü ərəb poeziyası.İslam dövrü ərəb ədəbiyyatı<br>*Mənbə:* [1; 2; 3;4.] | 2 | |
| 5 | **Mövzu.** Qədim yunan mifologiyası,yunan şifahi xalq ədəbiyyatı<br>*Qısa icmal:* Qədim Yunan ədəbiyyatında əsatir. Mifologiya əsatirlər və əsatir sistemləri haqqında elm kimi.Allahlar və qəhrəmanlar haqqında əsatirlər.<br>Homer ''İliada'' və ''Odisseya'' dastanlarının əfsanəvi yaradıcısıdır. Ədəbi inkişafın homer məsələsi. Homer dastanlarında əks olunan ictimai inkişaf mərhələləri.Poemalarda bədii təfəkkürün spesifikası. Klassik dövr Yunan ədəbiyyatı<br>*Mənbə:* [ 3; 4.] | 2 | |
| 6 | **Mövzu.** Qədim Roma ədəbiyyatı.<br>*Qısa icmal:*Roma quldarlıq cəmiyyətinin tarixi.Romada ictimai və mədəni həyatın özünəməxsusluğu.Plavt yaradıcılığı və onun yaradıcılığının estetik əsasları.Roma ədəbiyyatının çiçəklənməsi və süqutu dövrü.Mesenat dərnəyi.Vergili. "Eneida" poeması ədəbi qəhrəmanlıq eposu kimi.Əsərin ideya-siyasi və etik-estetik əsasları.Horatsi yaradıclığı.Antik təmsil.<br>*Mənbə:* [ 3; 4.] | 2 | |
| 7 | Mövzu:Qədim rus ədəbiyyatı (ümumi məlumat).<br>*Qısa icmal:*Qədim rus ədəbiyyatında janrlar. Qədim rus ədəbiyyatının təşəkkülü.Ədəbiyyatın formalaşmasında folklorun rolu və yeri.<br>*Mənbə:* **[10]** | 2 | |
| 8 | **Mövzu:** "İqor polku haqqinda dastan".<br>*Qısa icmal:*Əsərin tapılması, nəşr və tədqiqat və ideya- tarixi. Əsər haqqında müasir mübahisələr | 2 | |

| | | | |
|---|---|---|---|
| | *Mənbə:* **[10]** | | |
| 9 | **Mövzu.** Orta əsrlər dövrü qərb ədəbiyyatı.<br>*Qısa icmal:* Orta əsrlər eposu.Epos və onun ən qədim kökləri.Avropa eposu, "Kelt dastanı", "Kuxulin haqqında dastan",Cəngavər (Kurtuaz) ədəbiyyatı<br>*Mənbə:* [5] | 2 | |
| 10 | **Mövzu.**İntibah dövrünün ədəbiyyatı. İtaliyada intibah.<br>*Qısa icmal:*İtaliya XIV-XV əsrlərdə.Şairlərin "Siciliya məktəbi" və "Şirin üslub" poeziyası. Petrarka İtalyan humanizminin banisi kimi.Bokkaçço və onun "Dekameron" əsəri.<br>*Mənbə:* [ 5] | 2 | |
| 11 | **Mövzu.** Fransa və İspaniyada intibah.<br>*Qısa icmal:* Fransa XV- XVI əsrlərdə Fransada ictimai-siyasi quruluş.I Fransis dövründə mütləq monarxiya.Fransada humanizmin meydana gəlməsi.Rablenin yaradıcılığı. Onun humanist ideyaları.Poetik janrların reforması<br>İspaniyada mütləqiyyət quruluşunun xüsusiyyətləri.XVI əsrdə ispav cəngavər romanının geniş inkişafı.M.de Servantesin həyat və yaradıcılıq yolu. "Don Kixot" romanında cəngavər ədəbiyyatının və feodal ideallarının tənqidi.<br>*Mənbə:* [ 5.] | 2 | |
| 12 | **Mövzu.** İngiltərədə intibah.<br>*Qısa icmal:*XVI əsrdə İngiltərədə intibah ədəbiyyatının inkişafı.F.Bekonun "Yeni Atlantida" utopik romanı.<br>*Mənbə:* [ 5.] | 2 | |
| 13 | **Mövzu.** V.Şekspirin həyatı, yaradıcılığı.<br>*Qısa icmal:*. Faciələri.Faciələrin əsas xüsusiyyətləri. "Hamlet", "Otello", "Kral Lir", "Romeo və Cülyetto" faciələrinin ideya- məzmun xüsusiyyətləri. Şekspirin faciələri Azərbaycan səhnəsində. V.Şekspirin komediyaları və sonetləri.<br>*Mənbə:* [ 5.] | 2 | |
| 14 | **Mövzu:** XVIII əsr Qərb ədəbiyyatında maarifçilik.<br>*Qısa icmal:*Feodal sisteminin böhranı və burjua ictimai əlaqələrinin bərqərar olması şəraitində ədəbiyatın inkişafı. Maarifçilik proqramının əsas müddəaları və şüarları.<br>*Mənbə:* [2] | 2 | |
| 15 | **Mövzu:**XVIII əsr rus ədəbiyyatı. M.Y. Lomonosov yaradıcılığı.<br>*Qısa icmal:*XVIII əsr rus ədəbiyyatının ideya və bədii əhəmiyyəti. M.V.Lomonosov rus xalqının mənəvi ifadəçisi kimi. Onun fəlsəfi-materialist baxışı, vətənpərvərliyi, milli mədəniyyət və elm uğrunda mübarizəsi. *Mənbə:* **[11]** | 2 | |
| N | **Keçirilən seminar mövzular** | Sem | Tarix |
| 1. | Qədim Şərq ədəbiyyatı.(Şumer-Akkad ədəbiyyatı), Qədim Misir və Çin ədəbiyyatı | 2 | |
| 2. | Qədim Hind və İran ədəbiyyatı. Qədim Ərəb ədəbiyyatı | 2 | |
| 3. | Qədim yunan mifologiyası,yunan şifahi xalq ədəbiyyatı. Qədim Roma ədəbiyyatı. | 2 | |
| 4. | Qədim rus ədəbiyyatı (ümumi məlumat). "İqor polku haqqinda dastan". | 2 | |
| 5. | Orta əsrlər və. intibah dövrü Qərb ədəbiyyatı. | 2 | |
| 6. | Fransa və İspaniya və İngiltərədə intibah. V.Şekspirin həyatı, yaradıcılığı | 2 | |
| 7. | XVIII əsr Qərb ədəbiyyatında maarifçilik. | 2 | |

| 8. | XVIII əsr rus ədəbiyyatı. M.Y. Lomonosov yaradıcılığı. | 1 | |
|---|---|---|---|

**XI.Fənn üzrə tələblər:** Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları: Öyrənən tanış olur:-tələbələrin xarici (şərq və qərb) ölkə ədəbiyyatının məşhur nümayəndələrinin yaradıcılıqları ilə,-dünya (rus) ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan ədəbiyyatşünaslığında yerinin müəyyənləşdirilməsi ilə.

**XII. Fənn üzrə təlimin nəticələri:**

-Tələbələrin xarici ölkə ədəbiyyatının məşhur nümayəndələrinin yaradıcılıqları ilə yaxından tanış olur

-Dünya ədəbiyyatı nümunələrinin ümumbəşəri əhəmiyyətini, Azərbaycan ədəbiyyatşünaslığında yerinin müəyyən edir.

-"Dünya ədəbiyyatı" kursunun tələblərindən irəli gələrək dünya (Şərq və intibah dövrünə qədər Qərb) ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılıqlarını mənimsəyir.

-Dünya xalqlarının zəngin ədəbi – bədii və kulturoloji irsinin öyrənilməsi təkcə bu faktla bitmir, bu proses ədəbi irslərin mənimsənilməsi ilə yanaşı, bu ədəbiyyatların tədqiqində və bir sıra elmi – nəzəri ,estetik – metodoloji prinsiplərin də yeni konsepsiyalar əsasında işlənməsində ədəbiyyatşünaslara yardımçı olur.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollokvium sualları:**

**I kollokviumun sualları**

1. Şumer-Akkad mədəniyyətinin yaranması və inkişaf tarixi.
2. Qədim Misir ədəbiyyatının mərhələləri
3. Qədim Hind ədəbiyyatı. "Mahabharata" dastanı
4. "Avesta" əsərinin hissələri.
5. Qədim yunan folkloru
6. Homerin "İlliada" əsərinin təhlili
7. Aristofanın komediyaları
8. Esxilin "Zəncirlənmiş Prometey" əsəri
9. Sofoklun "Tiran Edip" faciəsi
10. Plavt komediyaları

**II kollokviumun sualları**

1.Qədim rus ədəbiyyatının janrları

2.XII-XIII əsr cəngavər- kurtuaz ədəbiyyatı

3.Qədim Kelt dastanı. "Kuxilin haqqında dastan"

4.Alman qəhrəmanlıq dastanı ("Nibulenq nəğmələri")

5. İtaliyada intibah. Petrarkanın həyatı və yaradıcılığı

6. Fransada intibah ədəbiyyatı. F. Rable.

7. İspaniyada intibah ədəbiyyatı. M. Servantes

8 İngiltərədə intibah ədəbiyyatı

9 V. Şekspirin həyat və yaradıcılığı.

10 V. Şekspirin faciələri. "Romeo və Cülyetta" faciəsinin ideya-bədii təhlili

**XV. İmtahan sualları:**

1. Şumer-Akkad mədəniyyətinin yaranması və inkişaf tarixi

2.Qədim Şumer mifologiyası

3.Qədim Şumer lirikası

4.."Bilqamış" dastanında əbədi həyat problemi

5.Klassik dövr Çin ədəbiyyatı

6.Qədim Misir ədəbiyyatının mərhələləri

7.Qədim Hind ədəbiyyatı. "Mahabharata" dastanı
8."Avesta" əsərinin hissələri
9."Avesta"da Xeyirlə Şərin mübarizəsi
10.Qədim yunan folkloru
11.Qədim yunan qəhrəmanlıq dastanları
12. Qədim yunan şifahi xalq ədəbiyyatında mifologiya
13.Homerin "İlliada" əsərinin təhlili
14.Aristofanın komediyaları
15.Evripidin "Medeya" və "İppollit" faciələri
16.Esxilin "Zəncirlənmiş Prometey" əsəri
17.Sofoklun "Tiran Edip" faciəsi
18.Plavt komediyaları
19.Qədim rus ədəbiyyatının janrları
20."İqor polku " dastanı
21.XII-XIII əsr cəngavər- kurtuaz ədəbiyyatı
22.Qədim Kelt dastanı. "Kuxilin haqqında dastan"
23.Alman qəhrəmanlıq dastanı ("Nibulenq nəğmələri")
24.İntibah dövrünün ədəbiyyatı. İtaliyada intibah
25.Petrarkanın həyatı və yaradıcılığı
26.Fransada intibah ədəbiyyatı
27.F. Rablenin "Qarqantüa və Pantaqrüel" əsəri
28.İspaniyada intibah ədəbiyyatı
29.M. Servantesin "Don Kixot" əsəri
30.İngiltərədə intibah ədəbiyyatı
31.V. Şekspirin faciələri
32.V. Şekspirin "Hamlet" faciəsi
33.V. Şekspirin "Romeo və Cülyetta" faciəsinin ideya-bədii təhlili
34.V. Şekspirin "Otello" faciəsinin məzmunu
35.M. Lomonosovun həyat və yaradıcılığı

**"Dünya ədəbiyyatı-1"** fənninin sillabusu **050101-Azərbaycan dili və ədəbiyyatı müəllimliyi** ixtisasının tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. "Azərbaycan dili və ədəbiyyat" kafedrasının 31 yanvar 2025-ci il tarixli iclasında təsdiq olunmuşdur (Protokol № 05).

**Fənn müəllimi:** prof. K.Ş.Kazımov

**Kafedra müdiri:** dos. Q.İ.Rufullayev